**AUDİT 2023, 2 (40), səh. 74-83.**
**AUDIT 2023, 2 (40), pp. 74-83.**
**АУДИТ 2023, 2 (40), стр. 74-83.**

**DOI: 10.59610/bbu2.2023.2.8**

*Altun Yasinli,*
*doktorant,*
*Naxçıvan Dövlət Universiteti,*
*E-mail: altunsektorel@gmail.com*
*© Yasinli A., 2023*

**UOT: 332.1**

# AZƏRBAYCANDA VƏ MALAYZİYADA KİÇİK VƏ ORTA MÜƏSSİSƏLƏRƏ DÖVLƏT DƏSTƏYİNİN MÜQAYİSƏLİ QİYMƏTLƏNDİRİLMƏSİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** - Malayziya hökuməti tərəfindən kiçik və orta müəssisələrə (bundan sonra KOM) verilən dəstəklərin araşdırılaraq Azərbaycan Respublikasında tətbiqi imkanlarını analiz edərək müvafiq təkliflərin verilməsidir.

**Tədqiqatın metodologiyası -** Malayziya iqtisadiyyatının iqtisadi xüsusiyyətləri, KOM-ların inkişafı perspektivləri ilə yanaşı, Azərbaycan Respublikasında kiçik və orta müəssisələrin ehtiyaclarını təsdiq edən rəsmi sorğuların nəticəsində tətbiq uyğunlaşdırılması metodlarından istifadə edilməsindən ibarətdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – KOM-ların Azərbaycan Respublikası iqtisadiyyatında yeri və rolu artmaqdadır. Eyni zamanda Azərbaycan Respublikasının 2022–2026-cı illərdə "Sosial-İqtisadi İnkişaf Strategiyası"nda sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin effektivliyi, ünvanlılığı və şəffaflığı gücləndirilməsi qeyd edilmişdir. Bu baxımdan KOM-ların dəstəklənməsində Malayziya təcrübəsi sözügedən hədəflərin reallaşması məqsədi ilə istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – dünya iqtisadiyyatında KOM-lar işsizliyinin azaldılması yeni məşğulluq sahələrinin yaradılmasında, tarazlı iqtisadi və sosial inkişafın təmin edilməsində zəruri rol oynamaqdadır. Azərbaycan Respublikasında KOM-ların inkişafı üçün mövcud dövlət dəstəklərinə əlavə olaraq Malayziya praktikasında uğurla tətbiq edilən səmərəli stimullaşdırıcı mexanizmlər tətbiq edilməlidir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – tədqiqatda Malayziya iqtisadiyyatının əsas göstəriciləri, kiçik və orta biznes mühiti, dövlət tərəfindən tətbiq edilən stimullaşdırıcı mexanizmlər Malayziya hökümətinin müvafiq qurumlarının beynəlxalq hesabatları araşdırılmış, eyni zamanda Azərbaycan Respublikasında KOM-ların ehtiyaclarının təsdiq edən sorğulara istinad edilmişdir. Yekunda Azərbaycanda sahibkarlıq fəaliyyətinə başlamaq və mövcud fəaliyyətini genişləndirmək KOM-lar üçün yeni stimullaşdırıcı mexanizmlərin yaradılması təklif edilmişdir.

**Açar sözlər:** KOM, iqtisadi artım, Azərbaycan iqtisadiyyatı, dövlət dəstəkləri, stimullaşdırıcı mexanizmlər, Malayziya.

AUDİT 2023, 2 (40), səh. 74-83.
AUDIT 2023, 2 (40), pp. 74-83.
АУДИТ 2023, 2 (40), стр. 74-83.

## G İ R İ Ş

KOM-lar işçilərin sayı, biznesin həcmi və gəlir səviyyəsi baxımından iri müəssisələrdən kiçik olmasına baxmayaraq, onların iqtisadi iqtisadi inkişafa təsiri kifayət qədər böyükdür. Belə ki, KOM-lar yerli iqtisadiyyatlarda müxtəlifliyi artırmaqla, yeni müəssisələrin yaradılması və yerli istehsal potensialını artırmaqla iqtisadi artıma töhfə verirlər. Həmçinin bu müəssisələrin malik olduqları kiçik idarətemə modeli, işçi tələbləri gənc işçilərin və qadınların məşğulluq bazarına inteqrasiyasında iri müəssisələrə nəzərən onların məşğulluqdakı rolunu daha da əhəmiyyətli edir. Eyni zamanda KOM-lar çevik strukturları ilə yaradıcı ideyaların formalaşmasında və daha aşağı büdcə ilə texnoloji yeniliklərlə cəld uyğunlaşırlar. Digər tərəfdən KOM-lar təchizat zəncirinin mərhələləri üzrə daha çox yerli biznes subyektləri ilə əməkdaşlıq edərək ölkələrin daxili istehsalını stimullaşdırır. Nəticədə, KOM-lar iqtisadi inkişaf, işsizlik nisbətlərinin azaldılması, innovasiya və texnologiyanın inkişafında potensialın nümayiş etdirilməsi və daxili istehsalın gücləndirilməsi kimi bir çox üstünlüklərə malik olduğu üçün dövlətlər tərəfindən onların inkişafı məqsədi ilə bir çox stimullaşdırıcı mexanizmlər tətbiq edilir.

Qeyd edilən səbəblərdən zəngin neft və qaz yataqlarına malik olan Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı üçün özəl sektorun, xüsusilədə kiçik və orta sahibkarlığın ölkə iqtisadiyyatındakı payının yüksəldilməsi üçün bir çox islahatlar həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi təsdiq edilmiş və sözügedən Yol Xəritəsinin icrası nəticəsində kiçik və orta sahibkarlığın inkişafı üçün hüquqi baza təkmilləşdirilmiş, onların inkişafını təmin edən yeni dövlət dəstəkləri tətbiq edilmiş və nəticədə KOM-ların ölkə iqtisadiyyatında payı artmışdır. Qeyd edilən uğurlu dinamika ilə yanaşı Azərbaycan iqtisadiyyatında KOM-ların mövcud inkişaf potensialına adekvat olan ekosistemin formalaşması üçün onların probelmlərinin çevik həllini təmin edən və dinamik inkişafını şərtləndirən yeni mexanizmlərə ehtiyac duyulmaqdadır. Ona görə də Azərbaycan Respublikasında KOM-ların fəaliyyətinin təşviqi üçün mütərəqqi praktikaya malik ölkələrin təcrübəsindən istifadə mühüm yer tutur.

Bu məqsədlə araşdırmada zəngin neft resursların malik olan Malayziyanin kiçik və orta biznes mühitinin təkmilləşdirilməsi üçün tətbiq etdikləri uğurlu mexanizmlər tədqiq edilmiş, onların Azərbaycan Respublikasında tətbiqi imkanları araşdırılmışdır. Tədqiqatda Malayziya iqtisadiyyatının xüsusiyyətləri, kiçik orta biznes mühiti, bu sahədə mövcud təşviq mexanizmləri Malayziya hökümətinin rəsmi internet resurslarına və beynəlxalq hesabatlara istinad edilərək incələnmişdir. Eyni zamanda Azərbaycan Respublikasında KOM-ların üzləşdikləri problemləri təsdiq edən sorğulara istinad edilmiş və yekunda bu problemlərin həlli üçün Malayziya təcrübəsində uğurla tətbiq edilən mexanizmlərdən istifadə nümunələri təklif edilmişdir.

AUDİT 2023, 2 (40), səh. 74-83.
AUDIT 2023, 2 (40), pp. 74-83.
АУДИТ 2023, 2 (40), стр. 74-83.

**Dünya iqtisadiyyatında Malayziyanın yeri**

Malayziya iqtisadiyyatı Cənub-Şərqi Asiyada İndoneziya və Taylanddan sonra 3-cü, dünyanın isə 35-ci ən böyük iqtisadiyyatıdır. Malayziya Sinqapur, Tayland və Vyetnamın daxil olduğu Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasının (ASEAN) bir hissəsidir. Malayziya 2002-ci ildən bəri hər il orta hesabla 5,1% artan iqtisadiyyatı ilə sürətlə və davamlı inkişaf edir. Biliyə əsaslanan sənayelərin cəmləşməsi və istehsalda ən son texnologiyanın tətbiqi Malayziyanın iqtisadi inkişafın hərəkətverici qüvvəsidir. Dünya Bankının "Biznesin asanlığı" indeksinə görə, Malayziya biznesə başlama asanlığı indikatoru üzrə 12-ci yerdədir. Həmçinin 2022-ci ilin hesabatına görə, Malayziya iqtisadi azadlıq indeksinə görə 177 ölkə arasında 42-ci yerdədi, qlobal rəqabət qabiliyyətinə görə və 2019-cu ilin məlumatlarına görə 141 ölkə arasında 27-ci yerdədir [1].

Malayziya regional iqtisadi inteqrasiyanı inkişaf etdirməyi hədəfləyən ASEAN İqtisadi Birliyinin qurucu üzvlərindən biridir. Üzvlər arasında ticarət ASEAN ölkələri arasında imzalanmış ASEAN Malların Ticarət Sazişi (ATIGA) ilə liberallaşdırılır. 2021-ci ildə ölkənin ixracatı 299 milyard dollar (əvvəlki ilə nisbətən 28% artım), dünyada 1,4% payla 23-cü ölkə olmuşdur. 2021-ci ildə ölkənin ixrac etdiyi əsas məhsullar elektrik maşın və cihazları, mineral yanacaqlar, yağlar, maşınlar, mexaniki qurğular, alətlər, heyvan və bitki mənşəli piylər və yağlar, rezin və rezin məmulatlardır. 2020-ci ildə 92 milyard dollarlıq yüksək texnologiyalı məhsul ixracı ilə Malayziya dünyada 9-cu yerdədir. Malayziya 2021-ci ildə 187 milyard dollarlıq xarici kapital ehtiyatı ilə dünyada 37-ci yerdədir. Malayziya digər Uzaq Şərq ölkələri kimi ixraca əsaslanan sənayeləşmə prinsipini qəbul etsə də, onlardan fərqli olaraq xarici investisiyaların cəlb edilməsinə daha çox önəm vermişdir. Xarici sərmayələri cəlb etmək üçün xarici sərmayənin qarşısındakı maneələri minimuma endirmişdir [1].

**Malayziyada KOM-ların ölkə iqtisadiyyatında yeri və rolu**

KOM-lar Malayziyada "iqtisadiyyatın onurğa sütunu" sayılırlar. Kiçik və orta ölçülərinə baxmayaraq, bu müəssisələrin ümumi töhfəsi heç də kiçik deyil. Başqa sözlə, ölkədəki müəssisələrin 98,5%-i KOB-lardır və 2018-ci ildə onlar Malayziyanın ümumi daxili məhsuluna (ÜDM) 500 milyard Malayziya ringgitidən (RM) çox töhfə vermişdir. Əhəmiyyətli iqtisadi artımla yanaşı, KOB-lar həm də məşğulluğun əsas aparıcı qüvvəsidir. Hazırda onlar ölkənin işçi qüvvəsinin 70%-ni 5,7 milyon iş yeri ilə təmin edirlər. Bu, Malayziyanın ümumi məşğulluğunun 66%-ni təşkil edir [2]. Malayziyada KOB-ların əksəriyyəti (təxminən 89,2%) xidmət sektorlarında fəaliyyət göstərirlər. Satış dövriyyəsi və tam ştatlı işçilərin sayı aşağıdakı kimi və ya əsaslı tərifin müəyyən edilməsində istifadə olunan iki meyardır:

– istehsal sektoru üçün KOB-lar satış dövriyyəsi 50 RM milyondan çox olmayan və ya tam ştatlı işçilərin sayı 200-dən çox olmayan firmalar kimi müəyyən edilir;

– xidmətlər və digər sektorlar üçün KOB-lar satış dövriyyəsi 20 RM milyondan çox olmayan və ya tam ştatlı işçilərin sayı 75-dən çox olmayan firmalar kimi müəyyən edilir.

**AUDİT 2023, 2 (40), səh. 74-83.**
**AUDIT 2023, 2 (40), pp. 74-83.**
**АУДИТ 2023, 2 (40), стр. 74-83.**

***Qrafik 1.***

**Malayziya mikro, kiçik və orta sahibkarlıq kateqoriyaları**




Eyni zamanda Malayziyada sahibkarlıq fəaliyyətinin təsiri müxtəlif aspektlərlə ölçülə bilər. Birinci aspekt, KOM-lar Malayziyanın iqtisadiyyatını gücləndirir. Belə ki, 2017-ci ildə KOM-lar əvvəlki ildəki 5,2%-lə müqayisədə 7,2%-lik yüksək ÜDM artımını qeyd ediblər ki, bu da ümumi ÜDM-in 5,9%-lik artımını üstələyir. Bu, KOM-ların ümumi ÜDM-ə töhfəsini 2010-cu ildəki 32,2%-dən 2017-ci ildə 37,1%-ə yüksəldib. Malayziya müəssisələri də 2017-ci ildə ixrac dəyərinə RM 167,4 milyard töhfə veriblər (ümumi ixrac dəyərinin 17,3%-i). Bu ixrac dəyərinin əksəriyyəti üç əsas sektorun payına düşür: xidmətlər (50,4%), emal (47,2%) və kənd təsərrüfatı (2,4%). Həmçinin Malayziyada sahibkarlıq fəaliyyətləri cəmiyyətin müxtəlif təbəqələrinin o cümlədən qadınlar, gənclər və aztəminatlıların sosial-iqtisadi rolunu gücləndirir. Qadınların iqtisadi imkanlarının genişləndirilməsi baxımından 2017-ci il ərzində 364 052 qadın sahibkar maliyyə yardımı, təlim və biznes infrastrukturu kimi müxtəlif təşəbbüslərdən və sahibkarlıq dəstəyindən yararlanıb. Malayziyada KOM-lar bu günə qədər təxminən 9,9 milyon iş imkanı yaradır ki, bu da Malayziyadakı ümumi iş imkanlarının 66%-ni əhatə edir [3].

**Malayziyada KOM-lara verilən uğurlu dəstək mexanizmləri**

Malayziya iqtisadiyyatının böyük hissəsini əhatə edən KOM-ların ölkə iqtisadiyyatındakı rolunun artırılması məqsədi ilə müxtəlif təşviq mexanizmləri tətbiq edilmişdir. Aşağıda Malayziyada KOM-ların uğurlu inkişafını təmin edən effektiv stimullaşdırıcı mexanizmlər qeyd edilmişdir.

**a) “Reytinq cədvəli” dəstək mexanizmi** KOM-ların inkişafı üçün reytinq cədvəli mexanizmi ilk dəfə 2007-ci ildə hazırlanmışdır. Reytinq cədvəl mexanizmi maliyyə gücü, biznes fəaliyyəti, insan resursları, texnologiyanın əldə edilməsi və mənimsənilməsi, sertifikatlaşdırma və bazarda mövcudluq kimi yeddi qiymətləndirmə meyarına əsasən KOM-ların fəaliyyət səviyyəsini göstərmək üçün ulduz reytinqləri təyin edən diaqnostik vasitədir. Reytinq mexanizminin əsas məqsədi KOM-ların inkişafına köməklik göstərməkdir. Belə ki, rey-

AUDİT 2023, 2 (40), səh. 74-83.
AUDIT 2023, 2 (40), pp. 74-83.
АУДИТ 2023, 2 (40), стр. 74-83.

tinq cədvəli KOM-lara dəstək məqsədilə müxtəlif sənaye qurumları ilə tərəfdaşlıq əlaqələrinin qurulmasında köməklik edir. Dəstək çərçivəsində KOM-ların zəif tərəflərinin araşdırılması və aradan qaldırılması, həmçinin bu sahədə praktiki yardımın göstərilməsi, potensial müəssisələrin maliyyə resurlarına və bazara çıxış imkanlarının artırılması məqsədilə iri şirkətlər, MMC-lər, pərakəndə satış şirkətləri ilə əlaqələrinin asanlaşdırılır. Hal-hazırda, reytinq cədvəli maliyyə resursları və bazara çıxış üçün ilk göstərici kimi istifadə edilir. Reytinq cədvəli vasitəsi ilə iri müəssisələr və investorlar KOM-lar haqqında ilkin əsas məlumatları əldə edə bilir, onların imkanlarını və fəaliyyətlərini qiymətləndirir və izləyir [4].

b) "**Malayziya məhsulları üçün milli brend nişanı" dəstək mexanizmi**: Milli brend sertifikatı Malayziya şirkətlərinin məhsul və xidmətlərinin keyfiyyətini, mükəmməlliyini və fərqliliyini nümayiş etdirən sertifikatlaşdırma proqramıdır. Belə ki, dövlətin əsas məqsədi yerli məhsulların keyfiyyət, etibarlılıq və qablaşdırma standartlarının böyük brendlərdən daha aşağı olması barədə təsəvvürü dəyişməkdir. Bu proqram çərçivəsində dəstəkdən yararlanmaq istəyən Malayziya şirkətləri ciddi standartlara uyğun olaraq qiymətləndirilir ki, bununla da müəyyən edilmiş keyfiyyət standartlarına uyğunluğu təmin etmək üçün audit və monitorinq tədbirləri həyata keçirilir. Uğurlu olacaqları təqdirdə, məhsul və ya xidmətlərə iki il müddətinə Malayziya Ticarət Nişanının Milli Markasını daşımaq hüququ verilir. Eyni zamanda dəstək çərçivəsidnə KOM-ların milli brend nişanının alması məqsədi ilə onların istehsal etdikləri mal və xidmətlərin rəqabətqabliliyyətliliyinin artırılması üçün mentorluq, yeni texnologiya , standartların əldə edilməsi kimi dəstəklər göstərilir [3].

c) **"Alternativ Maliyyələşdirmə" dəstək mexanizmi:** Malayziyada 3 ildən az fəaliyyət göstərən şirkətlər maliyyələşdirmə imkanlarından istifadə etməklə bağlı müxtəlif çətinliklərlə üzləşirdilər, çünki banklar uzunmüddət fəaliyyət göstərən şirkətlərə üstünlük verir, KOM-lar isə maliyyə çatışmazlıqları ilə üz üzə qalırdılar. Bu məqsədlə, Equity Crowdfunding (ECF) və Peer-to-Peer (P2P) platformaları ilə yaradılaraq KOM-lara iqtisadi çətinliklərin öhdəsindən gəlməyə və pul vəsaitlərinin hərəkətini asanlaşdırmağa kömək göstərilməsi nəzərdə tutulur. Sözügedən dəstək forması onlayn platformalar vasitəsilə səhmlərə kraudfundinq (equity crowdfunding) qoyuluşu və peer-2-peer maliyyələşdirməni əhatə edir. Qiymətli Kağızlar Komissiyasından qeydiyyatdan keçmiş bir çox equity crowdfunding və P2P platformaları mövcuddur. Maliyyə dəstəyindən yararlanmaq üçün KOM-lar birbaşa equity crowdfunding və p2p platformalarının vebsaytlarında qeydiyyatdan keçərək müraciət edə bilərlər [4].

d) **"Biznes sürətləndirici proqram" dəstək mexanizmi :** Sözügedən proqram biznes məsləhət xidmətləri və maliyyə dəstəyi vasitəsilə KOM-ların imkanlarını artırmaq məqsədi daşıyan yardım proqramıdır. Bu proqram KOM-lara öz bizneslərini yerli və qlobal miqyasda böyütmək və genişləndirməkdə kömək etmək üçün geniş imkanların yaradılması təşəbbüslərini dəstəkləyir. Layihə dəstəyinin növü birbaşa maliyyənin ayrılmasıdır. Maliyyə dəstəyi məhsulların qablaşdırılması, brendin inkişafı, patentin əldə olunması, avadanlıq alınmasını əhatə edir.

e) **İxtisaslı Kadr Dəstəyi mexanizmi:** Malayziyada bu növ dəstəklər Malayziyanın İnsan Resursları Nazirliyi əsasında fəaliyyət göstərən İnsan Resurslarının İnkişafı Fondu (HRDF) adı altında verilir. HRDF ölkədəki müəssisələrin işçi qüvvəsinin potensialının artırılması və işçilərin bacarıqlarının inkişafı üçün təlim və inkişaf layihələrinə maliyyə dəstəyi verir. Bu çərçivədə KOM-lar üçün təlim və məsləhət xidmətləri də verilir. HRDF dəstəyi Malayziyanın İnsan Resursları Nazirliyi tərəfindən idarə olunur [5].

AUDİT 2023, 2 (40), səh. 74-83.
AUDIT 2023, 2 (40), pp. 74-83.
АУДИТ 2023, 2 (40), стр. 74-83.

**Azərbaycan Respublikası iqtisadiyyatında KOM-ların mövcud vəziyyəti**

KOM-lar zəngin neft və qaz resurslarına malik olan Azərbaycan Respublikasında iqtisadiyyatın dayanıqlı inkişafı üçün əsas göstərici hesab edilməkdədir. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında qurulmuş müasir iqtisadi infrastrukturun və stimullaşdırıcı mexanizmlərin təbiqi nəticəsində KOM-ların ölkə iqtisadiyyatında rolunun artırdığı qeyd edilmişdir. Belə ki, kiçik və orta sahibkarlığın fəaliyyətinin dəstəklənməsi üzrə kredit portfel 2018-ci ildən 1,5 dəfə artaraq 2021-ci ildə 4,4 mlrd manata çatmış, buna paralel olaraq KOM-ların sayı 3,1 dəfə artmış, qeyri-neft/qaz ÜDM-də payı 23,7%-ə və qeyri-neft/qaz ixracdakı pay 25,5%-ə yüksəlmişdir [6].

**Azərbaycan Respublikasında KOM-ların üzləşdikləri çətinliklər**

KOM-ların dəstəklənməsi istiqamətində Azərbaycan Respublikasında mühüm islahatlar həyata keçirilsə də, onlar fəaliyyətində bir çox problemlərlə üzləşməkdədirlər. Böyük işçi qüvvəsinə və müştəri kütləsinə sahib olmayan KOM-lar kövrək iqtisadi modelə malik olmaqla yanaşı, fəaliyyətində də çətinliklər mövcuddur.

Ölkəmizdə mikro kiçik və orta sahibkarlığın problemləri haqqında Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən mütəmadi olaraq sorğular təşkil edilməkdə və sözügedən Agentliyin saytında müvafiq məlumatlar dərc edilməkdədir. Qeyd olunanları nəzərə alaraq KOBİA tərəfindən 2019-2020-ci illərdə həyata keçirilmiş sorğulara əsasən ölkəmizdə KOM-ların qarşılaşdığı əsas çətinlik və problemlər aşağıdakı kimi formalaşdırılmışdır.

– **maliyyəyə əlçatanlığının məhdudluğu problemi** - 2019-cu ilin oktyabr ayında KOBİA tərəfindən dərc olunan "Əhali Arasında Biznes Mühitdən Gözləntilər Mövzusunda"sorğunun nə üçün biznesinizi dayandırdınız sualına respondentlərin 34.2% maliyyə problemi və borclar kimi cavab vermişdir. Eyni sorğuda "Hansı səbəbdən biznes fəalliyatinə başlamısınız?", "Hansı səbəbdən bizneslə məğul olmursunuz?", "Biznesə başlamağa maneə törədən faktorlar hansılardır?" sualına respondetlərin 53.8%- i maliyyə problemi, maddi çətinliklər və borclar cavabını vermişdir. Qeyd edilənlərlə yanaşı 2019- cu ilin noyabr ayında dərc edilən Sahibkarlıq Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi Üzrə sorğusu zamanı biznes faəliyyətinizdə hansı maneə, problem və çətinliklərlə üzləşirsiniz sualına respondentlərin 32.1% maliyyə imkanlarına çıxış məhduddur, investisiyamız azdır, kredit şərtləri KOM-lar üçün əlverişli deyil cavabını vermişdir. Qeyd olunanları nəzərə alaraq qeyd etmək olar ki, ölkəmizdə KOM-ların maliyyəyə əlçatanlığı aşağı olmaqla yanaşı, fəaliyyətinin davamı üçün tələb edilən maliyyə resursunun tapılmasında çətinliklərlə üzləşməkdədirlər [7].

– **korporativ idarəetmədə çatışmazlıqlar** - KOBİA tərəfindən 2019-cu ilin noyabr ayında həyata keçirilən "Korporativ İdarəetmə Sorğusun"da Sizin şirkətiniz Korporativ İdarəetmə Standartlarına riayət etmək üzrə öhdəlik götürülməsi sualında iştirak etmiş respondentlərin 83% heç bir öhdəlik götürülməməsini qeyd etmişdir. Eyni zamanda sözügedən sorğuda "Şirkətinizdə korporativ idarəetmə qaydalarına riayət olunmasına müntəzəm olaraq nəzarət edən vəzifəli şəxs və ya struktur bölmə müəyyən edilməsi" sualına respondentlərin 75% nəzarət edən şəxs və ya struktur bölmə müəyyən edilmədiklərini qeyd etmişdir. Sorğuda qeyd olunan nəticlər ölkəmizdə KOM-ların korporativ idarəetmə sahəsində çatışmazlıqların olduğunu göstərməkdədir [8].

**AUDİT 2023, 2 (40), səh. 74-83.**
**AUDIT 2023, 2 (40), pp. 74-83.**
**АУДИТ 2023, 2 (40), стр. 74-83.**

– **ixtisaslı Kadr Ehtiyaclarının qarşılanmaması** - KOBİA tərəfindən 2019-cu ilin oktyabr ayında “Sahibkarlıq Subyektlərinin Təlim və İxtisaslı Kadr Ehtiyacları” üzrə sorğu araşdırmasında respondentlərin 87.2%-i İşçi axtarışında əsas çətinliyin istənilən tələblərə cavab verən peşəkar işçi qüvvəsinin olmaması qeyd etmişdir [8] .

– **bazalara çıxışın məhdud olması** - Yuxarıda qeyd edilən sorğunun biznes fəaliyyətinizdə hansı maneə, problem və çətinliklərlə üzləşirsiniz sualına respondentlərin 35.6% müştəri qıtlığı, alıcılıq qabiliyyətinin aşağı olması, məhsullarımızı satmaq üçün bazarın olmaması cavabını vermişdir [9].

Eyni zamanda, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (bundan sonra OECD) tərəfindən hazırlanmış Avropa Kiçik Biznes Aktı qiymətləndirməsi üzrə ölkə profilləri "KOM Siyasəti İndeksi: Şərq Tərəfdaş Ölkələri 2020" adlı nəşrdə Azərbaycanda KOM-ların yaşıl iqtisadiyyat, maliyəyə əlçatanlıq, beynəlxalq bazarlara çıxış kimi sahələrdə problemlərin mövcud olduğu qeyd olunmuşdur.

**Azərbaycan Respublikasında KOM-ların üzləşdikləri çətinliklərin həlli istiqamətində Malayziya təcrübəsinin tətbiqi analizi**

Yuxarı başlıqda sadalanan problemlərin hər birinə alternativ olaraq Malayziya təcrübəsində tətbiq edilən təsviq mexanizləri qarşılaşdırılaraq analiz edilmiş və həlli mexanizmləri təklif edilmişdir.

***Sxem 1.***

***Azərbaycan Respublikasında KOM-ların üzləşdikləri çətinliklərin həlli istiqamətində təklif olunan Malayziya təcrübəsi nümunələri***



**AUDİT 2023, 2 (40), səh. 74-83.**
**AUDIT 2023, 2 (40), pp. 74-83.**
**АУДИТ 2023, 2 (40), стр. 74-83.**

## Y E K U N

Dövlətlərin dayanıqlı inkişafının təmin edilməsində KOM-ların ölkə iqtisadiyyatında dominantlılığının yüksəlməsi və inkişafı mühüm rol oynayır. Bu məqsədlə dövlətlər tərəfindən sağlam kiçik və orta biznes mühitinin formalaşdırılması və KOM-ların mövcud çətinliklərin həlli üçün stimullaşdırıcı mexanizmlərin tətbiqi zəruridir. Qeyd edilən istiqamətdə uğurlu təcrübəyə malik olan Malayziyada KOM-ların inkişafı üçün uğurlu təşviq siyasəti həyata keçirilir. Kiçik və orta biznesin inkişafını əsas iqtisadi piroritetlərdən hesab edən Azərbaycan Respublikasında KOM-ların ölkə iqtisadiyyatında rolunun yüksəldilməsi istiqamətində mühim adımlar atılır. Nəticədə Azərbaycan iqtisadiyyatında KOM-ların payı artan dinamika ilə davam edir. Eyni zamanda Azərbaycan Respublikasında KOM-ların inkişafı üçün onların mövcud problemlərinin çevik həllini özündə ehtiva edən və beynəlxalq praktikada uğurla tətbiq edilən stimullaşdırıcı dəstəklərə ehtiyac duyulur. Bu baxımdan aparılan araşdırmada məlum olmuşdur ki, mütərəqqi inkişaf modelinə malik olan Malayziyada sahibkarlığa verilən dövlət dəstəklərinin bəziləri Azərbaycan Respublikasında tətbiq oluna və uğurlu nəticə əldə edilə bilər. Belə ki, müvafiq dövlət orqanlarının apardığı sorğularda Azərbaycan Respublikasında KOM-ların maliyyəyə əlçatanlığın məhdududluğu problemi, korporativ idarəetmədə çatışmamazlıqlar, ixtisaslı kadr ehtiyaclarının qarşılanmaması, bazalara çıxışın məhdud olması kimi problemlərin mövcud olduğu qeyd olunmuşdur. Tədqiqatda sadalanan çətinliklərin aradan qaldırılması üçün Malayziya praktikasında tətbiq edilən “Alternativ Maliyyələşdirmə”, “Reytinq cədvəli”, “İxtisaslı Kadr dəstəyi”, “Biznes sürətləndirici proqram” dəstək mexanizmi, Malayziya məhsulları üçün milli brend nişanı” dəstək mexanizmlərindən Azərbaycan Respublikasında istifadə edilməsi müsbət töhfə verəcəkdir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Türkiye Cumhuriyyeti Ticaret Bakanlığı Uluslararası Anlaşmalar ve Avrupa Birliği Genel Müdürlüğü Malezya Ülke Profili, 4 s.
2. SME in Malaysia: History and Development, p 8-9.
3. SMEs Performance in Malaysia: The Role of ContextualAmbidexterity in Innovation Culture and Performance, p 2.
4. https://www.smecorp.gov.my/index.php/en/programmes1/2015-12-21-09-32-23/score
5. https://supportcentre.hrdcorp.gov.my/portal/en/home
6. Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası
7. https://smb.gov.az/storage/documents/%C6%8Fhali%20aras%C4%B1nda%20biznes%20m%C3%BChitd%C9%99n%20g%C3%B6zl%C9%99ntil%C9%99r.pdf
8. https://smb.gov.az/storage/documents/Korporativ%20idar%C9%99etm%C9%99%20Sor%C4%9Fu.pdf
9. https://www.oecd.org/global-relations/SMEPI-EaP-2020-Azerbaijan.pdf

**AUDİT 2023, 2 (40), səh. 74-83.**
**AUDIT 2023, 2 (40), pp. 74-83.**
**АУДИТ 2023, 2 (40), стр. 74-83.**

*Altun Yasinli,*
*Ph.D. Student,*
*Nakhchivan State University*
*E-mail: altunsektorel@gmail.com*
*© A.Yasinli, 2023*

# COMPARATIVE ASSESSMENT OF GOVERNMENT SUPPORT TO SMALL AND MEDIUM-SIZED ENTERPRISES IN AZERBAIJAN AND MALAYSIA

## A B S T R A C T

**The purpose of the research** - examination of the support provided by the Malaysian government to small and medium enterprises (hereafter SME) and analyze the possibilities of its application in Azerbaijan Republic and make appropriate proposals.

**The methodology of the research -** the economic characteristics of the Malaysian economy, as well as the prospects for the development of SMEs, are based on the use of application adaptative methods as a result of official surveys confirming the needs of SMEs in Azerbaijan Republic.

**The practical importance of the research** - the role and functions of SMEs in Azerbaijan is increasing. At the same time, strengthening the effectiveness, targeting, and transparency of state support mechanisms for entrepreneurship was mentioned in the «2022-2026 Socio-Economic Development Strategy» of Azerbaijan Republic. In this regard, Malaysia's experience in supporting SMEs can be used to realize the aforementioned goals.

**The results of the research -** SMEs play a crucial role in reducing the unemployment rate, creating new job opportunities, and contributing to balanced socio-economic development. In addition to the state support for the improvement of SMEs in Azerbaijan Republic, the effective stimulative mechanisms of Malaysia should be applied.

**The originality and scientific novelty of the research** - in this research paper, the main economic indicators, the SMEs environment, the stimulative mechanisms applied by the government, international reports of Malaysian government agencies, and surveys based on the needs of SMEs are refereed. In conclusion, it was proposed to create new stimulating mechanisms for SMEs to start entrepreneurial activities and expand their existing activities in Azerbaijan.

**Keywords:** SMEs, economic growth, the economy of Azerbaijan, state support, stimulating mechanisms, Malaysia.

**AUDİT 2023, 2 (40), səh. 74-83.**
**AUDIT 2023, 2 (40), pp. 74-83.**
**АУДИТ 2023, 2 (40), стр. 74-83.**

*Алтун Ясинли,*
*докторант,*
*Нахчыванский Государственный Университет,*
*E-mail: altunsektorel@gmail.com*
*© Ясинли А., 2023*

# СРАВНИТЕЛЬНАЯ ОЦЕНКА ГОСУДАРСТВЕННОЙ ПОДДЕРЖКИ МАЛЫХ И СРЕДНИХ ПРЕДПРИЯТИЙ В АЗЕРБАЙДЖАНЕ И МАЛАЙЗИИ

## Р Е З Ю М Е

**Цель исследования**-изучить поддержку, оказанную правительством Малайзии малым и средним предприятиям (далее-МСП), проанализировать возможности их применения в Азербайджанской Республике и внести соответствующие предложения.

**Методология исследования -** экономические особенности малазийской экономики, перспективы развития МСП, а также использование методов адаптации приложений в результате официальных опросов, подтверждающих потребности малых и средних предприятий в Азербайджанской Республике.

**Практическая значимость исследования** – возрастает место и роль МСП в экономике Азербайджанской Республики. В то же время в «Стратегии социально-экономического развития Азербайджанской Республики на 2022-2026 годы» отмечено усиление эффективности, адресности и прозрачности механизмов государственной поддержки предпринимательства. В связи с этим малазийский опыт поддержки МСП может быть использован с целью реализации указанных целей.

**Результаты исследования** - снижение безработицы в МСП в мировой экономике играют необходимую роль в создании новых сфер занятости, обеспечении сбалансированного экономического и социального развития. Для развития МСП в Азербайджанской Республике, помимо существующей государственной поддержки, должны применяться эффективные стимулирующие механизмы, успешно применяемые в малазийской практике.

**Оригинальность и научная новизна исследования** – были изучены основные показатели экономики Малайзии, особенности малого и среднего бизнеса, стимулирующие механизмы, применяемые государством, а также в исследовании были изучены международные отчеты соответствующих структур правительства Малайзии, а также даны ссылки на опросы, подтверждающие потребности МСП в Азербайджанской Республике. В заключение было предложено начать предпринимательскую деятельность в Азербайджане и создать новые стимулирующие механизмы для расширения существующей деятельности МСП.

**Ключевые слова:** МСП, экономический рост, экономика Азербайджана, государственная поддержка, стимулирующие механизмы, Малайзия.

*Məqalə redaksiyaya daxil olmuşdur: 09.03.2023*
*Təkrar işləməyə göndərilmişdir: 16.03.2023*
*Çapa qəbul olunmuşdur: 27.03.2023*

*The date of the admission of the article to the editorial office: 09.03.2023*
*Send for reprocessing: 16.03.2023*
*Accepted for publication: 27.03.2023*

*Дата поступления статьи в редакцию: 09.03.2023*
*Отправлено на повторную обработку: 16.03.2023*
*Принято к печати: 27.03.2023*